



İrəvan Gimnaziyasının şagird və müəllimlərindən bir qrupu

# Dövrünün mədəniyyət mərkəzi İrəvan ziyalıları

***Elm və mədəniyyət tariximizə "İrəvani" təxəllüsü ilə daxil olmuş bir çox alim, ədəbiyyat və mədəniyyət xadimi bu xəzinəyə önəmli töhfələrini veriblər. Mirzə Qədim İrəvani, Fazil İrəvani, Balağa İrəvani, Mirzə Müslüm İrəvani, Aşub İrəvani, Mirzə Məhəmməd İrəvani, Dəlil İrəvani, Əbdülkərim İrəvani və başqaların bu sırada adlarını qeyd etmək olar. Çar Rusiyası dövründə İrəvan ədəbi-mədəni irsinin inkişafında İsmayıl bəy Şəfibəyov, Eynəli bəy Sultanov kimi qabaqcıl fikirli ziyalıların əvəsiz rolu olmuşdur. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər.***

Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri kimi tanınmış İrəvan məşhur şairlər, nasirlər, elm və mədəniyyət xadimləri yetişdirmişdir. XIX əsrin əvvəlində rus qoşunlarının şəhəri işğalından sonra qiymətli əlyazmaların böyük əksəriyyəti məhv edilmişdir. Əsasən məscidlərdə və mədrəsələrdə saxlanılan qiymətli əlyazmaların əksəriyyəti yandırılmışdır.

## TANINMIŞ QƏLƏM SAHİBİ MƏMMƏDƏLİ HACI MƏMMƏD

Bu gün İrəvan mühitinin yetirdiyi ziyalılardan söhbət açacağıq. Məmmədəli Hacı Məmməd oğlu. 1899-cu ildə İrəvan şəhərində anadan olmuş Məmmədəlinin atası Hacı Məmməd kişi dini təhsil almış, ərəb, fars dillərini öyrənmişdi. Məmmədəli 1908-1914-cü illərdə İrəvan gimnaziyasında təhsil




etdirmişdir. M.Nasir Hüseynağa Şahtaxtlının rəhbərliyi ilə İrəvanda qurulan "Müdafeyi-məzluman" təşkilatının fəallarından olmuşdur.

M.Nasir daşnakların təqibindən yaxa qurtararaq 1918-ci ildə Gəncəyə gəlmiş, 1920-ci ildə onun redaktorluğu ilə "Qırmızı Gəncə" qəzeti nəşr olunmuşdur. Onun yazdığı "Bədbəxt ailə" pyesi 1919-cu ildə Gəncədə tamaşaya qoyulmuşdur.

Mənbələrdə qeyd olunur ki, 1917-ci ildən Kommunist Partiyasının üzvü olan Məmmədəli Nasir 1921-ci ildə Ermənistana rəhbər işə dəvət edilmiş, 1922-ci ilin yanvarınadək Ermənistan KP MK-nın təbliğat-təşviqat şöbəsinin nəzdində Türk seksiyasının müdiri vəzifəsində işləmiş, sonra isə "Rəncbər" qəzetində çalışmışdır.

1922-1923-cü illərdə Qafqaz Bürosu M.Nasiri Gürcüstanın Azqur, Borçalı və Qarayazı rayonlarında partiya komitəsinin katibi vəzifəsinə işə təyin etmişdir. 1926-cı ildə Qafqaz Bürosunun təyinatı ilə Zaqatalada Siyasi maarif şöbəsinin müdiri işləyən M.Nasiri bir il sonra Bakıda "Kommunist" qəzetinə işə dəvət edilmişdir. O, burada bir neçə il təlimatçı, Qəzalarla iş şöbəsinin müdiri vəzifəsində çalışmışdır. M.Nasir 1931-1934-cü illərdə Dəvəçidə ("Yüksəliş"), Laçında ("Şura Kürdüstanı"), Ağdamda ("Ağdam kolxozçusu"), Bərdədə ("Qızıl Bərdə"), Əli Bayramlıda (indiki Şirvan şəhəri – "Pambıq zərbəçisi") kimi rayon qəzetlərinin məsul redaktoru kimi fəaliyyət göstərmişdir.

1935-ci ildə "Yeni yol"da məktublar şöbəsinin müdiri işləmişdir. 1936-cı il iyulun 18-də repressiyaya məruz qoyularaq həbs olunmuş, 10 illik sürgün həyatına məhkum edilmişdir. 1956-cı ildə bəraət almış, həmin ildən vaxtilə işlədiyi "Kommunist" qəzetində təşkilatçı müxbir kimi fəaliyyətini davam etdirmişdir. Eyni zamanda "Ədəbiyyat və incəsənət", "Kommunist", "Bakı" qəzetlərində, "Azərbaycan", "Kirpi" kimi jurnallarda çıxışlar etmişdir. Məmmədəli Nasir 1982-ci il aprel ayının 14-də 83 yaşında vəfat etmiş, Bakının şəhər qəbiristanlığında dəfn olunmuşdur.





İrəvan xanlığının ərazisində yeganə işlək dil Azərbaycan türkcəsi olmuşdur. Mənbələrdə göstərilir ki, İrəvan və Naxçıvan xanlıqlarının ərazisində 1829-1831-ci illərdə kameral siyahiyaalma keçirən rus tarixçi-statisti İ.Şopen "tatar dilinin" – yəni Azərbaycan dilinin yayılma arealı haqqında belə qənaətə gəlmişdir: "Bu məşhur dil haqqında bir neçə söz deməmək mümkün deyildir, hansı ki, Adriatik dənizindən tutmuş, Sakit, Hind və Atlantik okeanlarının sahillərinədək, Qədim Dünyanın üçdəbir hissəsində milyonlarla xalqlar bu dildə anlaşırlar". Böyük rus şairi M.Y.Lermontov Qafqazı gəzdikdən sonra bu qənaətə gəlmişdi: "Tatar dilini (yəni Azərbaycan dilini) öyrənməyə başlamışam, fransız dili Avropada zəruri olduğu kimi, bu dil də burada və ümumiyyətlə Asiyada zəruridir".

almış, fars dilini mükəmməl öyrənmişdi. Nasir təxəllüsü ilə 1912-ci ildə mətbuata gəlmiş gənc Məmmədəli yazılarını Bakıda nəşr olunan "Sədayi-həqq", "İqbal" qəzetlərində dərc etdirirdi. 1914-cü ildə İrəvanda Azərbaycan dilində "Lək-lək" satirik jurnalı nəşrə başlayanda o, həmin jurnalda "Şeytan", "Dul toyuq" imzası ilə şeirlər və məqalələrlə çıxış etmişdir. Məmmədəli Nasir 1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində məsləkdaşları M.Mirfətullayev, T.Rzayevlə birgə İrəvanda "Cavanlar şurası" adlı siyasi, ictimai, ədəbi bir qəzet açmağa müvəffəq olmuşdur. Bu qəzet daşnakların çirkin əməllərini pisləyir, xalqı ayıq və səfərbər olmağa səsləyirdi. Bu səbəbdən də qəzetin nəşrinə imkan verilməmiş, 3-4 sayından sonra bağlanmışdı. Bundan sonra o, "Açıq söz" qəzetində çıxışlarını davam

Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir. Tarixin müxtəlif dönəmlərində dövrünün tanınmış simaları soyqırıma və deportasiyaya məruz qalmış, dünyanın bir sıra ölkələrinə - Şimali Azərbaycan, Türkiyə, Orta Asiya, İran, Rusiya və digər ölkələrə üz tutmuşdular. İrəvan, dövrünün mədəniyyət mərkəzi olmuşdur. İrəvanda yaşayıb-yaradan azərbaycanlılar öz istedadları ilə tariximizə parlaq səhifələr həkk etmişdilər.

***Nəzakət ƏLƏDDİNQIZI***